### 2019-cu il ölkəmizdə "Nəsimi ili"dir

# Cahana sığmayan Azərbaycan oğlu

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 15 noyabr 2018-ci il tarixli Sərəncamı ilə bu il ölkəmizdə böyük Azərbaycan şairi, mütəfəkkir İmadəddin Nəsiminin anadan olmasının 650 illik yubileyi qeyd olunur. Ölkə başçısı eyni zamanda 2019-cu ili "Nəsimi ili" elan etmişdir. Bu münasibətlə respublikamızın hər yerində, bir sıra xarici ölkələrdə tədbirlər keçirilir, kütləvi informasiya vasitələrində Nəsimi haqqında, onun yaradıcılığı və fəlsəfi görüşləri barədə geniş məlumat verilir.***

Ölkə başçısının İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında yuxarıda bəhs etdiyimiz Sərəncamında qeyd edilir ki, "İmadəddin Nəsimi Azərbaycan xalqının ümumbəşər mədəniyyətinə bəxş etdiyi qüdrətli söz ustadlarındandır. O, Şərqin zəngin mənəvi sərvətləri üzərində ucalmış və bədii söz sənətinin son dərəcə qiymətli incilərini meydana gətirmişdir".



Seyid Əli Seyid Məhəmməd oğlu İmadəddin Nəsimi 1369-cu ildə Şamaxıda anadan olmuşdur. İlk təhsilini Şamaxıda almış, dövrün elmlərini, dinlərin tarixini, məntiq, riyaziyyat və astronomiyanı öyrənmişdir.

Nəsimi 14-cü əsrin sonlarında Azərbaycanda geniş yayılmış hürifiliklə maraqlanmış, hürufiliyin banisi Fəzlullah Nəiminin dini-fəlsəfi görüşlərini mənimsəyərək, bu təriqətin fikirlərini təbliğ edən şeirlər yazmağa başlamışdır. İlk vaxtlar sufi təriqətinin banisi Həllac Mənsur Hüseyninin xatirəsinə hörmət olaraq "Huseyni" təxəllüsü ilə şeirlər yazan Seyid Əli sonradan hürufi Nəiminin təxəllüsü ilə həmahəng olan "Nəsimi" təxəllüsünü qəbul etmişdir.

1394-cü ildə Nəimi edam edildikdən sonra Nəsimi mürşidinin "Vəsiyyətnamə"sinə əsasən Təbrizə, Anadoluya və Ərəb ölkələrinə getmiş, ömrünün son illərini Hələbdə (Suriya) yaşamış, 1417-ci ildə elə orada da ruhanilərin fitvası ilə dərisi soyularaq edam edilmişdir.

Nəsimi mürəkkəb yaradıcılıq yolu keçmişdir. Yaradıcılığına aşiqanə şeirlərlə başlayan Nəsimi sonradan siyasi, ictimai, əxlaqi mövzularda əsərlər yazmış, Azərbaycan ədəbiyyatı tarixində ana dilində fəlsəfi qəzəlin banisi olmuşdur.

Böyük şair həyat, cəmiyyət haqqında açıq deyilməsi qorxulu olan tənqidi fikirlərini aşiqanə və ya təbiət təsvirləri içərisində söyləmişdir.

Jörkəmli söz ustasının bədii yaradıcılığı Azərbaycan poeziyasının və ədəbi dilinin inkişafında mühüm rol oynamışdır.

Nəsiminin əsərləri hələ sağlığında Azərbaycan, Yaxın Şərq, İraq, Kiçik və Orta Asiyada şöhrət tapıb, geniş yayılmışdır.

Nəsimi irsinin Azərbaycan xalqının mənəviyyat xəzinəsində layiqli yer tutmasında ümummilli lider heydər Əliyevin böyük xidmətləri olmuşdur. Ulu öndərin təşəbbüsü ilə 1973-cü ildə Nəsiminin 600 illik yubileyi YUNESKO tərəfindən beynəlxalq miqyasda qeyd edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və ölkəmizin birinci xanımı, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın səyləri nəticəsində 2017-ci ildə Parisdə YUNESKO-nun baş qərargahında Nəsiminin vəfatının 600 illiyinin qeyd edilməsi, 2018-ci ilin sentyabr ayında ölkəmizdə Nəsimi şeir, incəsənət və mənəviyyat festivalının təntənəli şəkildə keçirilməsi, dövlət başçısı tərəfindən 2019-cu ilin ölkəmizdə "Nəsimi ili" edilməsi ölməz şairin xatirəsinə dərin ehtiramın ifadəsidir.

**Qüdrət SƏMƏDOV**
**"Qəbələ"**

# Dövlət rəsm qalereyasında növbəti sərgi

"Azərbaycan Gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramının icrasına uyğun olaraq aprelin 16-da Qəbələ Dövlət Rəsm Qalereyasında uşaq və yeniyetmələrin əsərlərindən ibarət sərgi təşkil olunub.



Sərgidə müxtəlif janrlarda işlənilmiş rəsm əsərləri ilə yanaşı dekorativ tətbiqi sənət nümunələri də nümayiş etdirilib.

Sərgi rəsm həvəskarları tərəfindən maraqla qarşılanıb.

**Səhrab UMUYEV,**
**"Qəbələ"**

# Qəbələdə buraxılış imtahanları üç mərkəzdə aparılıb

Dövlət İmtahan Mərkəzinin aprelin 14-də ümumtəhsil müəssisələrinin 11-ci sinif şagirdləri üçün buraxılış imtahanları keçirilib.

İmtahanların keçirilməsi üçün Qəbələdə yaradılan 3 imtahan mərkəzində rayon üzrə 1151 şagird iştirak edib.

İmtahan saat $11^{00}$-da başlanıb və 3 saat davam edib. Şagirdlərin bilik və bacarıqlarını yoxlamaq məqsədilə tədris dili, riyaziyyat və xarici dil fənləri üzrə ümumilikdə 85 tapşırıq təqdim olunub.

Rayon təhsil şöbəsindən verilən məlumata görə bütün imtahan mərkəzlərində 11-ci sinif şagirdləri üçün buraxılış imtahanları mövcud təlimata uyğun keçib və heç bir qanun pozuntusuna yol verilməyib.

**Nahidə ƏBDÜRƏHİMOVA,**
**"Qəbələ"**

# "Günahsız günahkarlar" tamaşası təqdim olunmuşdur

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 15 sentyabr 2017-ci il tarixli



Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramına uyğun olaraq gənclər arasında insan alveri və zorakılıq haqqında maarifləndirmə işinin gücləndirilməsi ilə bağlı müxtəlif kütləvi tədbirlərlə yanaşı bu mövzuya həsr olunmuş teatr tamaşalarının hazırlanması və regionlarda nümayiş etdirilməsi də nəzərdə tutulmuşdur.

Bu məqsədlə aprelin 16-da Qəbələ Mədəniyyət Mərkəzində teatr həvəskarlarına Bakı Uşaq Teatrının mövzu ilə bağlı hazırladığı "Günahsız günahkarlar" tamaşası təqdim olunmuşdur. Tamaşaya rayonun müxtəlif idarə və müəssi-



sələrində çalışan gənclər, ictimaiyyət nümayəndələri, həmçinin ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdləri dəvət edilmişdir.

Gənclər və İdman Nazirliyinin sifarişi ilə hazırlanan tamaşanın nümayişindən əvvəl rayon gənclər və idman İdarəsinin rəisi Fəxri Soltanov tamaşaçılar qarşısında çıxış edərək pyesin səhnəyə qoyulmasında məqsədin gənclərin müasir dövrün qlobal problemlərindən olan insan alveri mövzusunda məlumatlarını artırmaqdan ibarət olduğunu bildirmişdir.

Daha sonra teatrın direktoru və bədii rəhbəri İntiqam Soltan tamaşaçılara insan alverinin törətdiyi fəsadlar barədə geniş məlumat vermiş, gələcəyimiz olan gənclərin ruhən və fiziki cəhətdən sağlam həyat, sağlam düşüncə tərzi seçmələri üçün valideyinlərə daha məsuliyyətli olmalarını tövsiyyə etmişdir.

Real həyatda baş verən hadisələr əsasında hazırlanmış səhnə əsəri Qəbələ tamaşaçıları tərəfindən maraqla qarşılanmışdır.

**Mübariz AĞAYEV,**
**gənclər və İdman idarəsinin aparıcı məsləhətçisi.**
**Səhrab Umuyev (foto).**